

Hacər FƏRHADİ

*Çağdaş İran şairi və rəssamı Hacər Fərhadi 1984-cü ildə İsfahanda anadan olub. Bədii yaradıcılığa qəzəl yazmaqla başlayıb, sonra modern şeir formalarına üz tutub. 2010-cu ildə nəşr olunan "Sətirlər arasında bir ovuc daş" adlı ilk şeir kitabı İranda böyük rezonans doğurub, təqdir və tənqid olunub, müsabiqədə uğur qazanıb. Sonralar xanım Fərhadi daha çox rəssam kimi fəaliyyət göstərib, əsərləri ölkədə və xaricdə keçirilən bir çox sərgilərdə nümayiş etdirilib.*

# Sənə təklif edirəm ki, hərdən ucadan güləsən! Harada olsan, bir nəfər daim sənin gülüşlərini gözləyir...

## Bir ovuc saman qalacaq küləklərə

Həkim deyiləm,
amma sənə on dəqiqə
küçənin kənarındakı daşların üstü ilə getməyi
məsləhət görürəm!
Anlayasan ki,
ağıllı olmaq yaxşı şeydir,
amma dəlilik
daha gözəldir!

Sənə yoluna çıxan
uşaqlara gülümsəməyi
tövsiyə edirəm.
Biləsən ki,
təmənnasız sevmək mümkündür hələ də.

Sənə təklif edirəm ki,
hərdən ucadan güləsən!
Harada olsan,
bir nəfər daim
sənin gülüşlərini gözləyir...

Həkim deyiləm,
amma sənə
məsləhət görürəm ki,
şad olasan!
Günəş hər səhər
bizim yaşamağımız üçün doğur!
Heç vaxt xəyali sabahı gözləmə...
Həyatdan sevinc payını elə bu gün götür...

Unutma,
məqsəd heç də həmişə
yolun sonundakı yer deyil!
Məqsəd
atdığımız addımlardan
həzz almaqdır!

Çayını iç,
sabahın dərdini çəkmə!
Bizim zəmidən
bir ovuc saman qalacaq küləklərə...

## İçimdən bitib bu ağac

İçimdən bitib bu ağac.
Külək olsan,
əllərimi anlayarsan,
damarlarımı dinləyərsən.

İçimdən bitib bu ağac.
Külək olsan, keçərsən.
Qar olsan...

## Domino

Gözünü qırpınca,
günlər
bir-birinin ardınca
qopub düşür.
Sonuncu parçası da
qəbir daşı olacaq.

## Nəfəslər

Məcazla danışıram mən.
Və bu şeir
həmin otaq, həmin yerdir.

Yazıram "dalğa":
Sən qucağını dənizə aç,
əllərinlə mənə bax,
əllərimə bax!

Rahat ol, bağla pəncərəni!
Nəfəslərimiz
təzələyəcək
otağın havasını.

## Sən məni tapmırsan

Bir göyərçin
yuva qurub
saçlarımda.
Bir hörümçək
tor bağlayıb
ağzımın üstündə.

Sən məni tapmırsan,
və yavaşca
ötüb keçirsən.



## Dəniz

Dənizdir -
ayağını irəli qoyur,
ayağını geri çəkir...

## Toxuduğum sözlər

Biri alt,
Biri üst...
Sözlərin kələfi
Aşağı enir millərdən.

Qarlı günlərdə
şeirlərimlə gəzə bilərsən.
Şeirlərimlə nəğmə oxuya,
şeirlərimlə isinə bilərsən.

* * *

Mənim toxuduğum sözlər
Sənin və heç kəsin
dərdinə dərman olmur.

Sənin ürəyin titrəyir,
mən isə
qulaqlarımı kar edirəm,
gözlərimi yumuram ki,
sükut qar kimi
sözlərimin üzərinə çöksün.
Qar kimi.
Və sən bu şeirin davamını
ağ oxuyasan...



*Fars dilindən tərcümə:*
**Məsiağa MƏHƏMMƏDİ**